## Dünya Qoruqlar və Milli Parklar Günü

Qəbələ şəhər Ş. Bulqədirov adına 5 nömrəli tam orta məktəbdə 11 yanvar Dünya Qoruqlar və Milli Parklar Günü münasibətilə maarifləndirici tədbir keçirilmişdir.



Tədbirdə 6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları Neman Kərimov ,Famil Məmmədov Şahdağ Milli Parkının Qəbələ bölməsinin əməkdaşları Vasif Əmiraslanov, Tərlan Qasımov və məktəbin müəllim və şagird kollektivi iştirak etmişdilər.

**"Qəbələ səsi"**

## Faxr edilacak ganc



Veysəlov Rəşad Nizami oğlu 2008-ci il fevralın 2-də Qəbələ rayonunun Mirzəbəyli kəndində anadan olub.

İdmana 7 yaşında Qəbələ İK-da Fərid Mustafayevin rəhbərlik etdiyi güləş idman növündə başlayıb.

Müxtəlif ölkələrdə keçirilən yarışlarda mükafatçılar sırasında yer alıb.

U-15 Avropa üçüncüsü, U-17 Gimnaziada üçüncüsü, 2 qat Respublika çempionu.



Biz də idmançımıza gələcək karyerasında uğurlar arzu edir, nailiyyətlərinin davamlı olmasını diləyirik.

**"Qəbələ səsi"**

## "Pusqu Qurdu" milli masaüstü idman oyunu - Qəbələdə

Qəbələ şəhərində "Qəbələ Yazarlarına Dəstək" İctimai Birliyinin rəhbəri Rəna Mahmudova və birliyin üzvü, eyni zamanda "Pusqu Qurdu" masaüstü idman oyununun müəllifi Azim Mirzəliyevin təşkilatçılığı ilə ilk milli "PUSQU QURDU" masaüstü dama oyununa həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan "Qəbələ Yazarlarına Dəstək" İctimai Birliyinin rəhbəri Rəna Mahmudova, Azim Mirzəliyevi "PUSQU QURDU" idman oyununda Azərbaycanın milli-mənəvi dəyərlərinə geniş yer verdiyinə, eyni zamanda Azərbaycanın idman mədəniyyətinin beynəlxalq müstəvidə tanıdılması istiqamətində gördüyü mühüm işlərə görə təbrik etmiş, ona gələcək fəaliyyətində uğurlar arzulamış və təşəkkürnamə ilə təltif etmişdir.

Daha sonra Qəbələ rayon Uşaq-Gənclər İdman Şahmat Məktəbinin rəhbəri Ədalət Əliyev çıxış edərək, yeni yaradılmış "PUSQU QURDU" masaüstü idman oyununun yaxın gələcəkdə geniş tanınacağına əminliyini ifadə etmiş, müəllifə yaradıcılıq yolunda uğurlar arzulamışdır.

Tədbirin sonunda Azim Mirzəliyev tərəfindən Qəbələ rayon Uşaq-Gənclər İdman Şahmat Məktəbinə və "Qəbələ Yazarlarına Dəstək" İctimai Birliyinin rəhbəri Rəna Mahmudovaya "PUSQU QURDU" masaüstü dama oyununun "Oyun bayrağı" və təşəkkürnamələr təqdim olunmuş, tədbirdə iştirak edən digər iştirakçılara da xatirə olaraq təşəkkürnamələr verilmişdir.

Tədbirdə Qəbələ rayon Uşaq-Gənclər İdman Şahmat Məktəbinin müəllim və şagird kollektivi fəal iştirak etmiş, oyunla yaxından tanış olmuş, xatirə fotoları çəkdirmişlər, milli məzmunlu bu yeni masaüstü idman oyunu böyük maraqla qarşılanmışdır.

Təqdimat iştirakçıları "PUSQU QURDU"nun gənclərin intellektual inkişafına, strateji düşüncə bacarıqlarının formalaşmasına və milli kimlik şüurunun gücləndirilməsinə mühüm töhfə verəcəyini vurğulamışlar.



Azim Mirzəliyev çıxışı zamanı milli oyunumuz olan "PUSQU QURDU" masaüstü idman oyununun gələcək inkişaf hədəflərindən də bəhs etmişdir. O, tədbir iştirakçılarına bu oyunun mobil tətbiqinin hazırlanmasının, eyni zamanda respublikanın bütün regionlarında "PUSQU QURDU" məktəblərinin fəaliyyətə başlamasının əsas məqsədlərindən biri olduğunu bildirmişdir.

**OYUN HAQQINDA MƏLUMAT**

İsmayıllıda yaradılmış "Pusqu Qurdu" masaüstü idman oyunu iki oyunçu arasında taxta lövhə üzərində oynanılan, strateji düşüncə, diqqət və planlama tələb edən rəqabətli milli oyundur. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən №4573 Şəhadətnamə ilə 06 noyabr 2024-cü il tarixində rəsmi qeydiyyata alınmışdır. Oyunun müəllifi Azim Arif oğlu Mirzəliyevdir.

Eyni tarixdə TALENT Academy tərəfindən müəllifə Sertifikate ID: 10020020 nömrəli kvalifikasiya verilmişdir. Hazırlanmış prosedurlara uyğun olaraq, bütün şərtləri yüksək şəkildə yerinə yetirmişdir və "PUSQU QURDU" masaüstü idman oyunu üzrə Mirzəliyev Azim Arif oğlu məşqçi-müəllim sertifikatı ilə təltif edilmişdir.

"Pusqu Qurdu" masaüstü idman oyunu İsmayıllıda yeni idman növü kimi ictimaiyyətə təqdim olunmuşdur. Bu haqda "İsmayıllı xəbərləri" qəzetində iki dəfə məlumat dərc edilmişdir.

Milli irs və müasirlik vəhdəti ilə ortaq olan milli oyunumuz inkişaf mərhələsindədir.

"Pusqu Qurdu" masaüstü idman oyunu digər analoji oyunlardan fərqli olaraq, milli dəyərləri və yenilikçi yanaşmanı özündə birləşdirir. Oyunun loqosu və lövhəsi xovlu xalça toxunma texnikası ilə hazırlanmış, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Azərbaycan Milli Xalça Muzeyi tərəfindən №014475 Şəhadətnamə ilə 15 yanvar 2025-ci il tarixində qeydiyyata alınmışdır.

Loqoda Azərbaycan bayrağının qırmızı rəngi xüsusi məna daşıyır - bu rəng müasirliyi, tərəqqini və inkişaf yolunu simvolizə edir. Bu ideya Azərbaycanın ölməz şairi İmadəddin Nəsiminin məşhur fəlsəfi mövqeyi ilə səsləşir:

"Mən əbədiyyət üfüqündə doğan günəşəm. Günəş qürub edəndə əlbəttə saralar."

İnkişaf yolunu seçmiş "Pusqu Qurdu" masaüstü idman oyununun loqosunda bu mənalar əks olunmuş, oyunun tanınma nişanı "oyun bayrağı" kimi "oyun saatı"nın yanında masada yerləşdirilmişdir.

Oyun lövhəsi və fiqurları aşağıdakı kimidir.

"Pusqu Qurdu" mücərrəd strategiya janrına aid masaüstü idman oyunudur. Oyun lövhəsi 12 üfüqi və 9 şaquli xətdən ibarət olmaqla 108 xanadan təşkil olunmuşdur. Bu xanalardan 54-ü ağ, 54-ü isə qara rənglidir.

Oyun Azərbaycan dili əlifbasını lövhə üzərində əks etdirən ilk milli masaüstü idman oyunu kimi fərqlənir. Lövhədə 9 hərf ardıcıllığı - A, B, C, Ç, D, E, Ə, F və G - Azərbaycan dilinin səs və kimliyini simvolizə edir.

Ümumilikdə oyunda 36 fiqur mövcuddur - 18 ağ və 18 qara.

Oyunun məqsədi və qaydaları ilə tanış olaq.

Oyunun əsas məqsədi rəqibin "Qala" fiqurunu hərəkətsiz vəziyyətə salmaq, yəni onun bütün geri çəkilmə (gediş) yollarını bağlamaqdır. Əgər "Qala" fiquru hərəkətsiz qalırsa və hərəkət edəcək yeri qalmırsa, "Pusqu Qurdu" tamamlanmış hesab olunur.

"Qala"ya hücum zamanı oyunçu "PUSQU" sözünü elan edir. Rəqib oyunçu "Qala"nı qorumalı və ya onu təhlükəsiz xanaya çəkməlidir. Əks halda, "Qala" fiquru məğlub sayılır və oyun qələbə ilə yekunlaşır. Oyun eyni zamanda heç-heçə ilə də nəticələnə bilər.

Tarixi simvolika və milli yaddaşın gələcəyə idmanla addımlamasıdır Pusqu Qurdu.

"Pusqu Qurdu" masaüstü idman oyunu digər oyunlardan fərqli olaraq Nadir şah, Cavanşir şah və Şah İsmayıl Xətai adlı üç müxtəlif düzülüş formasına malik ilk milli masaüstü oyundur.

Lövhədəki 9 hərf Azərbaycan dilinin kimliyini və yaddaşını, eyni zamanda ölkəmizin 9 iqlim qurşağını simvolizə edir. 12 sıra isə təqvimin 12 ayını və 4 fəslini ifadə edir. Şahmat lövhəsindən 44 xana artıq olması isə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərə işarədir. Oyunda əsas fiqurların 8 ədəd olması, bayrağımızdakı səkkizguşəli ulduzu və 8 noyabr Zəfər Gününü rəmzləşdirir.

**"Qəbələ səsi"**


**QƏBƏLƏ səsi**

**qəzetinə**

**2026-cı ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*




Qış lövhələri.

## İTMİŞDİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Qəbələ rayon Çuxur Qəbələ kənd sakini **Qaçayev Tahir Əhmədiyyə oğluna** verilmiş **"Qanuni Təmsilçi"nin reyestr çıxarışı və Qeyri-Kommersiya Hüquqi şəxsinin Dövlət Qeydiyyatı haqqında Şəhadətnaməsi itdiyi üçün** etibarsız sayılır.


Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AIIB 400400K9446609778149
VÖEN: 4402717261
Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1100*